**Siyəzənin timsalında Azərbaycanda son illər ərzində gedən inkişafı görürük.**
**İlham ƏLİYEV**



# ÇIRAQ

25 noyabr 2019-cu il № 10 (265) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə



Ölkəmizin ümumi inkişafı müsbətdir və mən gələcəkdə hər hansı bir ciddi problem görmürəm. Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Bizim siyasətimizə ləkə vuran hər bir adam öz cəzasını alacaqdır. Biz bu qədər səy göstəririk, bu qədər işlər görürük, əgər hansısa yaramaz məmur öz şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq və artıq tarix bunu göstərir.

...Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. 2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artmışdır, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşmüşdür. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, üç peykimiz var. Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr, sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir-Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## Azərbaycan Respublikası Siyəzən Rayon İcra Hakimiyyəti başçısının SƏRƏNCAMI

### 23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar seçkiqabağı tədbirlərin, görüşlərin keçirilməsi üçün Siyəzən rayonu ərazisində yerlərin müəyyən edilməsi haqqında

*«Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin VI bəndinə uyğun olaraq 23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar seçkiqabağı tədbirlərin, görüşlərin keçirilməsi üçün yerlərin müəyyən edilməsi məqsədilə qərara alıram:*

**1. Siyəzən rayonunda bələdiyyə seçkiləri ilə əlaqədar seçkiqabağı tədbirlərin, görüşlərin keçirilməsi üçün aşağıdakı yerlər müəyyən edilsin:**

| | |
|---|---|
| **Siyəzən bələdiyyəsi** | - Açıq yer-Siyəzən şəhər stadionu<br>Qapalı yer- «Siyəzənneft» NQÇİ-nin akt zalı |
| **Gilgilçay bələdiyyəsi** | - Açıq yer- Gilgilçay qəsəbəsində idman meydançası<br>Qapalı yer-Gilgilçay qəsəbəsindəki kitabxana binası |
| **Yenikənd bələdiyyəsi** | - Açıq yer-Yenikənd kəndində idman meydançası<br>Qapalı yer-Yenikənd kəndində klub binası |
| **Həmyə bələdiyyəsi** | - Açıq yer-Böyük Həmyə kəndində idman meydançası<br>Qapalı yer-Böyük Həmyə kəndində klub binası |
| **Beşdam bələdiyyəsi** | - Açıq yer-Beşdam kəndində idman meydançası<br>Qapalı yer-Beşdam kəndində kitabxana binası |
| **Zarat bələdiyyəsi** | - Açıq yer-Zarat kəndində idman meydançası<br>Qapalı yer-Zarat kəndində klub binası |
| **Eynibulaq bələdiyyəsi** | - Açıq yer-Eynibulaq kəndində idman meydançası<br>Qapalı yer-Eynibulaq kəndində klub binası |
| **Sədan bələdiyyəsi** | - Açıq yer-Sədan kəndində idman meydançası<br>Qapalı yer-Sədan kəndində kitabxana binası |
| **Məşrif bələdiyyəsi** | - Açıq yer-Məşrif kəndində idman meydançası<br>Qapalı yer-Məşrif kəndində klub binası |
| **Dağ Quşçu bələdiyyəsi** | - Açıq yer-Dağ Quşçu kəndində idman meydançası<br>Qapalı yer-Dağ Quşçu kəndində klub binası |
| **Yuxarı Ələz bələdiyyəsi** | - Açıq yer-Yuxarı Ələz kəndində kənd meydanı |

**2. Müəyyən edilmiş yerlərin siyahısı «Çıraq» qəzetində dərc edilsin.**
**3. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.**

**Novruz Novruzov**
**Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı**
**21 oktyabr 2019-cu il**

## Doğru yolda olduğumuzu görürəm

Yazıya öncə möhtərəm cənab Prezident İlham Əliyevin fikirlərinə istinad etməklə başlamaq istəyirəm. O, qeyd edir:

"Siz vətəndaşlarla daim təmasda olmalısınız, bütün kəndləri gəzməlisiniz, kənd camaatı ilə görüşməlisiniz. Sizin işiniz kabinet işi olmamalıdır. Düzdür, əlbəttə ki, hər bir rəhbərin işi, o cümlədən qəbul edilən qərarlar, görülən işlər, keçirilən müşavirələr-bütün bunlar hər bir rəhbər işçinin gündəlik həyat tərzidir. Ancaq siz çox mobil başçılar kimi fəaliyyət göstərməlisiniz..."

"Rayonların abadlıq-quruculuq işlərinə diqqət yetirilməlidir, mövcud obyektlərin işlək vəziyyətdə olması da çox önəmlidir..."

"Əlbəttə ki, rayonlarla böyük şəhərlər arasında fərq var, hər bir ölkədə. Ancaq biz bu fərqi azaltmalıyıq. Rayon yerində elə şərait yaradılmalıdır ki, oradakı vətəndaşlar elə orada yaşasınlar. İş yerləri olmalıdır. İndi dövlət xətti ilə bu proqram icra olunur, o cümlədən ödənişli ictimai işlər yaradılıbdır..."

"Əgər kimsə problemləri malalamaq istəyirsə, səhv yoldadır. Sizə də tapşırıram, hər bir ölkədə problem var, biz o problemləri örtbasdır etməməliyik. Əksinə, üzə çıxarmalıyıq. O cümlədən mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz..."

Qeyd etdiyim fikirlər cənab Prezident İlham Əliyevin yeni başçıların təqdimatı zamanı verdiyi tövsiyələrdən götürülmüşdür. Göründüyü kimi, verilən mesajlar kifayət qədər aydın və dəqiqdir. Yəqin ki, bunları rənqından asılı olmayaraq hər bir rəhbər özü üçün yol xəritəsi hesab edə bilər. Vəzifəmiz, sadəcə, qeyd olunanlardan doğru, dürüst nəticələr çıxarmaq, xalqın və əlbəttə, cənab Prezidentin etimadını qazanmaqdan ibarət olmalıdır.

Xoş təəssüratın nəticəsidir ki, məndə də qeyd olunanlarla bağlı münasibət bildirmə istəyi yarandı. Görəsən, bəs bizdə vəziyyət necədir?

Məncə, Siyəzəndə baş verən bu abadlıq, quruculuq işlərini, xalqın rifahı naminə həyata keçirilənləri görməmək, buna biganə qalmaq ən azı insafsızlıq olardı. Hansı dəyişiklikləri? Çıxın, Siyəzənin küçə və məhəllərini gəzin, o zaman hər şeyi gözlərinizlə görəcəksiniz. Nöqsanlarımız, çatışmayan işlərimiz yoxdurmu? Var, əlbəttə ki, var. Nöqsan harada yoxdur ki? Söhbət qüsur və çatışmazlıqlarla barışmaqdan gedir. Aradan qaldırılmasına səy göstərirsən, çalışırsansa, deməli, hər şey tezliklə yoluna qoyulacaqdır.

Siyəzən camaatı qədirbilən camaatdır. Heç vaxt ədalət hissini itirmir. Hər şeyi görür və doğru da qiymətini verir. Cənab Prezidenti dinləyərkən onun dedikləri ilə Siyəzəndə baş verənləri sinxron tutuşdururam. Və doğru yolda olduğumuzu görürəm.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı hörmətli Novruz müəllimi əhali arasında tez-tez görmək olar. Bu, onun rayonumuza rəhbər təyin olunduğu gündən ta bu günədək eyni qaydada davam edən, pozulmayan iş rejimidir. Bəli, o, hər gün camaatla görüşür, ünsiyyətdə olur, hal-əhval tutur, şəhərin ayrı-ayrı küçə və məhəllələrini, kəndlərimizi gəzir, bir sözlə, cənab Prezidentimizin tapşırığına uyğun olaraq xalqın arasında olur, nə düşündükləri, istəkləri barədə təəssüratlarını toplayır və yerinə yetiriləcək məsələləri planlı şəkildə nizamlayır. Müşahidələri nəticəsində toplanan faktları sistemləşdirərək müvafiq idarə, müəssisə rəhbərlərinə çatdırır, daha sonra isə onlardan hesabatlılıq tələb edir.

Rayonumuzda yerinə yetirilən işlərin ölkə üzrə həyata keçirilən islahatların ruhuna uyğun olmasını əhalimiz alqışlayır, rəhbərliyə öz dəstəyini verir. Heç bir kənar qüvvəyə və yaxud təsirə uymurlar. Və məncə, bu, həyata keçirilənlərə adekvat olan tam normal bir münasibətdir.

İllərlə toplanan zəngin iş təcrübəsi rayon rəhbərinə verəcəyi tapşırıq və göstərişlərin həm nəzəri, həm də praktik əsaslarının möhkəmliyinə şübhə yeri qoymur. Əsas məsələ verilən tapşırıqları qavramaq və sonra icra etmək qabiliyyətinin varlığındadır ki, bu, artıq digər vəzifə sahiblərinə aid məsələdir.

Son vaxtlar cənab Prezidentimiz İlham Əliyev tərəfindən startı verilmiş çox ciddi islahatlar iş sahəsindən asılı olmayaraq, hər birimizin üzərinə sorumlu vəzifələr qoyur. Bu, o deməkdir ki, maksimum çalışmalı, verilən göstəriş və tapşırıqların icrasında səyimizi əsirgəməməli, töhfəmizi verməliyik.

Qeyd etmək xüsusi ilə xoşdur ki, rayonumuzun əhalisi möhtərəm cənab Prezidentimiz İlham Əliyevə, onun səlahiyyətli nümayəndəsi hörmətli Novruz müəllimə inanır, hörmət və ehtiramını hər zaman göstərir. Bu isə uğurlu gələcək üçün çox vacib şərtdir.

Bizim-media işçilərininsə media olaraq vəzifəmiz verilən tapşırıqları əhatə edən ayrı-ayrı spektrləri diqqətdə saxlamaq, hər dəfə müəyyən komponentlərini nəzərinizə çatdırmaqdan ibarət olacaqdır.

**İ. İLYASOV.**

## Səyyar qəbullar davam edir

Növbəti səyyar görüşün ünvanı Suvarma Sistemləri İdarəsinin binası idi. Şəhərin Ə. Cabbarov, M. Ə. Rəsulzadə və Ə. Vahid küçələrində yaşayan sakinlərdən bir qrupu buraya- rayon rəhbərliyinin səyyar qəbuluna gəlmişdilər.

Səyyar qəbula toplaşanları səmimiyyətlə salamlayan hörmətli İcra başçımız Novruz Novruzov bildirdi ki, görüşə gəlməzdən öncə həmin küçələrdə oldum. Mövcud vəziyyəti gördüm. İndisə sizinlə görülmüş işləri, eləcə də çatışmazlıqları birlikdə müzakirə etmək niyyətindəyəm.

Müzakirələr zamanı qeyd edildi ki, adları çəkilən küçələrdə yaşıllıqların artırılması vacibdir. Ə. Cabbarov adına küçənin işıqlandırılması vəziyyəti də qaneedici deyildir. Yuxarı məhəllədə bəzi sakinlər kanalizasiya sularını ümumi xəttə qoşmadığı üçün çirkab suları küçəyə axıdır. Söylənilən fikirlər müzakirə edildi, çıxış yolları müəyyənləşdirildi.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı hörmətli Novruz müəllim cənab Prezident İlham Əliyevin son zamanlar ölkədə apardığı siyasətlə bağlı qəbul iştirakçılarına ətraflı məlumat verdi. İdarə, müəssisə və təşkilat rəhbərlərinə müraciətlə dedi ki, hər bir məmur problemi kökündən öyrənib vətəndaşa anlaşıqlı formada izah etməyi bacarmalıdır. Vətəndaşın şikayət və yaxud təklifi diqqətlə araşdırılmalıdır, özü də qanunlara ciddi əməl edilməklə.

Görüşdə bütün məhəllələrdə istirahət yerlərinin təşkili məsələsinə toxunuldu. Küçə və yaşayış məhəllələrinin təmizliyi barədə də danışıldı.

Səyyar qəbula gələn vətəndaşlardan bir neçəsi onlara göstərilən diqqət və qayğıya görə rayon rəhbərliyinə minnətdarlığını bildirdi.

************************************

Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzovun növbəti görüşü şəhərin F. Əlməmmədov küçəsinin sakinləri ilə idi. O, görüş iştirakçılarını salamladıqdan sonra bildirdi ki, işimizi sizin müraciətləriniz əsasında quracayıq. Bizə verilən suallar, etdiyiniz müraciətlər tərəfimizdən təhlil olunacaq, obyektiv həllinə çalışacayıq. Əlbəttə, biz yalnız mümkün məsələləri həll edə bilərik. Demək istəyrəm ki, müraciətlərinizdə obyektiv olmağa çalışın. Ümumiyyətlə, bilin ki, biz xoş niyyətlərin ardınca gedirik.

Daha sonra cənab başçı sakinlərə rayonda abad kənd, abad məhəllə layihələrinə başlanılacağı barədə də məlumat verdi. Bildirdi ki, bəzi küçələrimizi hələ də işıqlandıra bilməmişik. Bunuçün lazımi tədbirlər görülür, sözsüz ki, tədricən buna da nail olacağıq.

Sakinlərin etdikləri müraciətlər də elə bu xarakterdə idi. Hörmətli Novruz müəllim aidiyyəti şəxslərə məsələnin həllində asan variantların axtarılmasını tövsiyə etdi. Qeyd etdi ki, hər kəs işinə yaradıcı yanaşmağı bacarmalıdır.

Səyyar qəbulların qrafikinə uyğun, cənab başçı Ərziküş və Çarxana kənd sakinləri ilə də görüşmüşdür.

**P. S.** Açığını etiraf edim ki, mənimçün bu dəfə də ən maraqlısı vətəndaşlarla görüşün maarifçi istiqamətə yönləndilməsi oldu. Bu, artıq bir ənənə halını almışdır.

Hörmətli başçı vətəndaşlara rayonun gələcəyi, perspektivləri, planları barədə xeyli maraqlı bilgilər verdi. Mənəviyyat məsələlərinə toxundu, buna xüsusi önəm verdi.

Məncə, belə görüşlər həm də rayonda sağlam mənəvi mühitin yaranmasında önəmli rol oynayır. Belə görüşlər hər iki tərəfə mənəvi zövq, mənəvi zənginlik, nəhayət, mənəvi rahatlıq qazandırır. Hər iki tərəf deyərkən isə mən burada həm də yazıçı-oxucu münasibətlərini nəzərdə tuturam.

**«Çıraq»**

# Aytacın uğuru

Yəqin ki, son günlərdə baş verənlər Aytacın yadından heç zaman çıxmayacaqdır. O, vətəndən çox-çox uzaqlarda-Polşanın Torun şəhərində yerləşən Yaradıcılıq Mərkəzi və Qalareyasının təşkilatçılığı ilə keçirilmiş Uşaq və Gənclərin XX Beynəlxalq Qrafika Müsabiqəsinin qalibi olmuşdur.



Bu münasibətlə Heydər Əliyev Mərkəzində mərasim keçirilmişdir. Tədbirdə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı hörmətli Novruz Novruzov iştirakçılara müraciətlə bildirmişdir ki, siyəzənli gəncin beynəlxalq müsabiqənin qalibi olması rayonumuzun fəxridir, düzgün yaradıcılıq mühitin formalaşmasının nəticəsidir, müəllimlərin əməyinin bəhrəsidir. Yüzlərlə rəsmin içindən Aytacın çəkdiklərinin fərqlənməsi, Diploma layiq görülməsi, əlbəttə, çox böyük qələbədir.



Tədbirdə Siyəzən Uşaq İncəsənət Məktəbinin direktoru, respublikanın Fəxri Mədəniyyət işçisi Rəhim Bağırov diqqətə çatdırdı ki, Aytac Mütəllimova məktəbimizin məzunudur. Rəssamlığa böyük həvəsi, bacarığı ilə elə ilk vaxtlardan seçilən Aytacın uğurlarında rəsm müəllimi Elmar Məmmədovun əməyi xüsusi qeyd edilməlidir. Şagirdlərimizin hər bir uğuru bizim üçün başucalığıdır.

Hacı Yusif Hacıyev, Elmar Məmmədov, beynəlxalq müsabiqə qalibi Aytacı təbrik edib, yeni-yeni yaradıcılıq uğurları arzuladılar. Hazırda Bakıda Rəssamlıq Kollecində Təhsilini davam etdirən Aytac daha həyəcanlı idi. Təntənəli görüş üçün o, rayon rəhbərliyinə, şəxsən İcra başçısı Novruz müəllimə təşəkkür etdi. Uğurlarında əməyi olanlara-Uşaq İncəsənət Məktəbinin kollektivinə, 4 saylı tam orta məktəbin müəllimlərinə minnətdarlığını bildirdi.

Mərasimi hörmətli Novruz müəllim yekunlaşdırdı. Qeyd etdi ki, Aytacın uğuru neçə-neçə gənci ruhlandıracaq, incəsənətə, rəssamlığa marağın artmasında mühüm rol oynayacaq. Çəkilən zəhmət itmir, öz layiqli qiymətini alır. İstedadlı gənclərə qayğı hər zaman diqqət mərkəzindədir.

Tədbirdə Polşadan göndərilmiş medal, Diplom və hədiyyə Aytac Rufulla qızı Mütəllimovaya təqdim edilmişdir. İştirakçılar Aytacın çəkdiyi rəsmlərdən ibarət sərgiyə də maraqla baxmışlar.

**«Çıraq»**

# Noyabr-əlamətdar günlər ayıdır

## 9 noyabr-Dövlət Bayrağı Günü

Bayraq hər bir dövlətin suverenliyinin simvoludur. Tarixən bayraqlardan gəmilərdə istifadə olunmağa başlanılmış, sonradan isə döyüşlərdə döyüşən tərəflər bir-birini ayırd etsin deyə bayraqlardan istifadə etmişlər. Azərbaycanda isə dövlətçilik tarixi dərin köklərə malik olduğundan bayraqdan istifadə də qədim tarixə malikdir. Ərazimizdə mövcud olmuş hər bir dövlətin özünəməxsus bayrağı olmuşdur. Xalq Cümhuriyyəti dövründə 24 iyun 1918-ci il tarixində üzərində ağ aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq Cümhuriyyətin Dövlət bayrağı kimi təsdiq edildi. Lakin 1918-ci il 9 noyabrda bu bayraq göy, qırmızı, yaşıl zolaqlardan ibarət yeni bayraqla əvəz olundu. Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin irəli sürdüyü «türk qanlı, islam inamlı və Aypara qiyafəli» ideyası Məhəmməd Əmin Rəsulzadə tərəfindən daha da təkmilləşdirilərək bayrağımızda öz əksini belə tapdı: Türk milli mədəniyyəti, müasir Avropa demokratiyası və İslam sivilizasiyası. Böyük dramaturq Cəfər Cabbarlı bayrağımızın rənglərini şeirlə belə təsvir etmişdir:

*Bu ay, ulduz boyaların qurultayı nə demək*
*Bizcə, belə söyləmək*
*Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,*
*Bir türk oğulu olmalı*
*Yaşıl boya islamlığın sarsılmayan imanı*
*Ürəklərə dolmalı.*
*Bu al boya azadlığın, təcəddüdün fərmanı*
*Mədəniyyət bulmalı.*

## 12 noyabr-Konstitusiya Günü

**«Bizim Konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır.»**

**Heydər Əliyev**

Konstitusiya cəmiyyətin və dövlətin quruluşu deməkdir, dövlətin ən yüksək qanunudur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Konstitusiya qəbul edilməsə də «İstiqlal Bəyannaməsi» konstitusiyanı əvəz etmişdir. Sovet hakimiyyəti dövründə 1921-ci ildə Azərbaycan SSR-in birinci Konstitusiyası, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiya qəbul edilmişdir. 1921 və 1937-ci illər Konstitusiyasında xalqa geniş hüquqlar vəd olunsa da formal xarakter daşıyırdı. 1978-ci il Konstitusiyasının 73-cü maddəsinə görə, Azərbaycan SSR-in dövlət dili Azərbaycan dili qəbul edilmişdir. Bu maddənin qəbul edilməsində həmin dövrdə ölkəyə rəhbərlik edən Heydər Əliyevin böyük rolu olmuşdur. Müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsi də Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiya tərəfindən hazırlanmış və 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi ilə qəbul edilmiş, 27 noyabrda qüvvəyə minmişdir.

## 17 noyabr-Milli Dirçəliş Günü

1988-ci ilin 17 noyabrında Dağlıq Qarabağda Topxana meşəsinin ermənilər tərəfindən məhv edilməsi əhalinin meydanlara çıxmasına səbəb oldu. Bu, xalqın milli həmrəyliyinin yüksək nümayişi idi. Bu hərəkat xalq tərəfindən «Meydan hərəkatı» adlandırıldı. Meydan hərəkatının Azərbaycanın müstəqilliyə gedən tarixində xüsusi rolu olmuşdur. Buna görə də 17 noyabr tariximizə Milli Dirçəliş günü kimi daxil olmuşdur.

**Sevinc Mikayılova,**
**1 saylı tam orta məktəbin tarix müəllimi.**

## «Müstəqillikdən intibaha» mövzusunda görüş keçirilib

Gənclər Mərkəzində ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin təbliği və Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında oynadığı rolun gənc nəslə aşılanması məqsədilə «Müstəqillikdən intibaha» mövzusunda görüş keçirilib. Görüşdə Gənclər və İdman idarəsi və Təhsil şöbəsinin nümayəndələri, həmçinin cüdo və sambo qruplarında idmanla məşğul olan yeniyetmə idmançılar və onların məşqçi-müəllimləri iştirak ediblər. Tədbir iştirakçıları çıxış edərək ümummilli liderin müstəqil Azərbaycan dövlətinin qurucusu kimi həyata keçirdiyi işlərdən, o cümlədən ölkəmizdə əsaslı sabitlik və inkişafın əldə olunmasındakı rolundan bəhs ediblər. Həmçinin çıxışlarda Heydər Əliyev irsinin dərindən və hərtərəfli öyrənilməsinin böyük əhəmiyyətə malik olduğu vurğulanıb.

## «İradənlə qalib gəl!» şüarı altında silsilə tədbirlər keçirilmişdir

Gənclər Mərkəzində yeniyetmə oğlanlar və qızlar arasında şahmat üzrə rayon birinciliyi keçirilib. Gənclər və İdman idarəsi və Təhsil şöbəsi tərəfindən birgə təşkil olunan yarışda 40-a yaxın yeniyetmə yerlər uğrunda mübarizə aparıb. Yarış həmçinin yeniyetmə şahmatçıların yarış təcrübəsinin yüksəldilməsi və perspektivli şahmatçıların üzə çıxarılması məqsədi ilə keçirilib.

**************************

Noyabrın 9-da Gənclər və İdman idarəsi tərəfindən Regional Müalicə Diaqnostika Mərkəzində «Dövlət Bayrağı günü» dünyaya göz açan körpələrin valideynləri ilə görüşərək onları təbrik edib, həmçinin Azərbaycan bayrağı və hədiyyələr təqdim ediblər.

**Nadir Məmmədov,**
**Gənclər və İdman idarəsinin rəisi.**

## Tədbir keçirilmişdir

Azərbaycan Respublikası Prezidenti cənab İham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Qövlət Proqramı»nın müvafiq bəndlərinin icrası ilə əlaqədar İcra Hakimiyyətində fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiya Gənclər Mərkəzində yeniyetmə və gənclərin iştirakı ilə maarifləndirmə tədbiri keçirmişdir.

Tədbirdə Narkomanlığa və Narkotik Vasitələrin Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu rəhbərinin müavini Tanrıverdi Aydınov və digərləri müzakirə olunan məsələ ilə bağlı çıxış etmişlər.

Tədbirin sonunda mövzuya dair film nümayiş etdirilmişdir.

**********************

23 noyabr tarixində Mədəniyyət Mərkəzində «Yaşıl Patrul»-Ekoloji İctimai Nəzarətin yaradılması və regionlarda tətbiqi-canlı aləmin mühafizəsi naminə keçirilən marafon layihəsi ilə bağlı tədbir keçirilmişdir.

**Aqil Abdulov,**
**Siyəzən rayon İH-nin məsul işçisi.**

*Nəsimi-650*

# Əbədiyyət şairi

Siyəzən şəhər Mədəniyyət Mərkəzi son vaxtlar görkəmli sənətkarların yubileylərinin, bir-birindən maraqlı, yaddaqalan mədəni-kütləvi tədbirlərin keçirildiyi məkana çevrilmişdir. İndi bura əvvəlki illərdən daha çox qonaqlı-qaralı, çal-çağırlı olur.

Bir-birinin ardınca böyük sənətkarımız Cəfər Cabbarlının 120 illik yubileyinin, IX şairlər günündə nakam taleli şairimiz Mikayıl Müşfiqin anım tədbirinin keçirilməsi hələ uzun müddət iştirakçıların yaddaşlarında yaşayacaqdır. Əlbəttə, bölgədə ədəbi mühitin formalaşmasında Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı, tanınmış yazıçı Novruz Novruzovun xidmətləri xüsusi qeyd edilməlidir.

Ədəbiyyatımız tarixən qədim olan ədəbiyyatlardan biridir. Yaxın və Orta Şərqdə elə bir ölkə yoxdur ki, orada Xaqanini, Nizamini, Nəsimini, Füzulini, C. Məmmədquluzadəni, M. Ə. Sabiri və Azərbaycanın onlarca başqa mütəfəkkir sənətkarlarını tanımasınlar. Elə ədəbiyyatımızı yüzilliklər boyu ölməz və böyük edən də onda Xaqani fəlsəfəsinin, Nizami təfəkkürünün, Nəsimi cəsarətinin, Füzuli idrakının toplanmasıdır.

İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində XV əsrdə ana dilində gözəl, mükəmməl şeirlər yaratmış ilk mütəfəkkir şairlərdən biridir. Özündən sonra çox zəngin bədii irs qoyub gedən Nəsimi bu gün də böyük məhəbbətlə xatırlanır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə klassik ədəbiyyatımızın ölməz nümayəndəsi İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi, 2019-cu ilin ölkəmizdə Nəsimi ili elan edilməsi əsl xalq bayramına çevrilmişdir.

-Mən mülki cahan, cahan mənəm, mən,

Mən haqqa məkan, məkan mənəm, mən,- deyən böyük filosof şair İmadəddin Nəsiminin yubileyi ölkəmizin hər yerində olduğu kimi, Siyəzəndə də təntənəli şəkildə qeyd edilmişdir. Bu günlərdə şairin yubileyi münasibətilə Mədəniyyət Mərkəzində ədəbi-bədii tədbir keçirilmişdir.

Siyəzən Rayon İcra Hakimiyyəti, Mədəniyyət Mərkəzi və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə böyük şairin əsasən saf məhəbbətin tərənnümünə və hürufilik ideyalarının təbliğinə, kamil insan probleminə həsr edilən yaradıcılığı haqqında ətraflı danışıldı.

Tədbiri Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Təhminə Bəxtiyarova açmışdır. AYB Şabran Bölməsinin sədri yazıçı-publisist Aydın Tağıyev, AYB-nın üzvü, şair Nəcməddin Mürvətov, Siyəzən şəhər 1 saylı tam orta məktəbin ədəbiyyat müəllimi Xədicə Hüseynova, Mədəniyyət Mərkəzinin direktoru Ziyadə Dadaşova, 2 saylı tam orta məktəbin ədəbiyyat müəllimi Zərbalı Yusifov hürufilik ideyalarını yaydığı üçün bütün həyatı boyu təqib olunan, bir müddət Türkiyədə yaşayıb sonra Suriyanın Hələb şəhərinə gələn və burada həbs olunub işgəncə ilə edam edilən Nəsiminin əbədiyaşar poeziyası barədə geniş söhbət açdılar.

Çıxışlarda qeyd olundu ki, Nəsimi insana, insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamını tərənnüm edərək şeirlərində insanı həyatın yaradıcısı kimi, böyük bir varlıq kimi təsvir etmişdir. Nəsimi yaradıcılığında «Mən» həyatdır, gözəllikdir, kainatdır, bəşəriyyətin taleyidir. Nəsimi poeziyasının əsas lirik qəhrəmanı hər şeyə qadir kamil insandır. Şairə görə, insan hər şeydən qüvvətli, əzəmətli və uludur.

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,

Gövhəri laməkan mənəm, gövnü məkana sığmazam,-deyən şairə görə, insan hər iki cahanı özündə sığışdırmasına baxmayaraq özü bu cahana sığışmayan ali bir məxluqdur.

Məhəbbət poeziyanın ilham qaynağıdır. İmadəddin Nəsimi lirikasının da əsas obyekti məhəbbətdir, sevgidir. Tədbirdə böyük şairin obrazını canlandıran aktyor Kəmalətdin Nicatın tez-tez səhnəyə gəlməsi və şairin istər məhəbbət ünvanlı, istərsə də fəlsəfi



məzmunlu qəzəllərini böyük ustalıqla ifa etməsi dəfələrlə alqışlara səbəb oldu.

Yubiley tədbirində iştirak edən musiqili qonaqların çıxışları da alqışlarla qarşılandı. Ölkənin tanınmış qarmon ifaçısı Nizami Əsgərovun, qocaman müğənni Mirməmməd Mircavadovun, gənc müğənnilərdən Natiq Əliyevin, «Muğam» müsabiqəsinin diplomantı Maşallah Mirzəyevin, Vüsal Həsənovun bir-birindən maraqlı çıxışları, Nəsminin qəzəllərinin oxunması tədbiri xüsusilə yaddaqalan etdi.

İnsanın kamalı, gözəlliyi, qüdrəti və əzəməti qarşısında baş əyən, Şərq şeirinin müxtəlif janrlarında şeirlər yazan böyük şairin yubiley məclisinə Siyəzənli məktəblilər də həvəslə hazırlaşmışdılar. «İstedad sorağında» adlı müsabiqənin qalibləri Kənan Abdulovun (bədii qiraət), Nazənin İlyasovanın (rəqs) çıxışları, balaca müğənni Siyəzən şəhər 1 saylı tam orta məktəbin şagirdi Mirhidayət Kazımovun şairin qəzəlini şirin avazla ifa etməsi tədbirə xüsusi rəng qatdı.

Türk əruzunun formalaşmasında böyük rol oynamış İmadəddin Nəsimi yaradıcılığının Xətai, Füzuli kimi görkəmli Azərbaycan şairlərinin yetişməsində mühüm rolu olmuşdur. Həyat və zaman göstərir ki, hələ bundan neçə onilliklər, yüzilliklər sonra gələcək nəsillər klassik şeir ənənələrindən bəhrələnmək məqsədilə Nəsimi poeziyasına üz tutacaq, Nəsimi lirikasından ilham alacaqlar.

**Reyhan Muradova.**

# Beşbarmaq sədalı telli sazım

*20-ci əsrin sonlarından etibarən bölgəmizdə unudulmağa başlanan ulu aşıq-ozan sənətinin inkişaf etdirilməsinə çox böyük ehtiyac vardır. Hazırda şimal bölgəsində yaşayıb yaradan aşıqların sayı barmaqla sayılacaq qədərdir. Aşıq-şagird münasibətləri demək olar ki, yox dərəcəsindədir. Onlar da el şənliklərində, toy məclislərində saz havalarını balabanın, zurnanın müşayiəti olmadan, gündəlik geyimdə, zövqsüz tərzdə ifa edirlər.*

*Yazını qələmə almaqda məqsədim oxucularımızı, xüsusilə yeniyetmə və gənclərimizi zaman-zaman bölgəmizdə yaşayıb yaratmış el aşıqları ilə tanış etməkdir.*

*Həmçinin «Şirvan» aşıq məktəbinin layiqli davamçılarından olan, Böyük Həmyə kəndində yaşayan müəllim, peşəkar ifaçı, tanınmış el sənətkarı Aşıq Əli Sahibcan oğlunun yaradıcılığı barədə qələmə aldıqlarım yəqin ki, onu tanıyanların, vaxtilə sözünün, söhbətinin sehrinə düşənlərin böyük marağına səbəb olacaqdır.*



Aşıq sənəti tarixən xalqımızın milli mədəniyyətinin inkişafında mühüm rol oynamış və insanlarımız tərəfindən həmişə rəğbətləndirilərək sevilmişdir.

Aşıqların əcdadları sayılan şaman, qam, baxşı, varsaq, ozan və s. adlarla adlandırılan sənətkarlar, insanların qəlbini oxşamaqla, onlara işıqlı yol göstərən, gələcəkdən xəbər verən, müdrik, bilici, xəstələrə şəfa verən loğman kimi məşhurlaşmışlar.

Xalqımızın öz azadlığı uğrunda xarici və daxili düşmənlərə qarşı apardıqları mübarizələrdə saz çalıb oxumaqla ozan-aşıqlar döyüşçüləri savaşa ruhlandırmışlar.

Türk (oğuz) dünyasının ən böyük ozanı Dədə Qorqudun (10-11-ci əsr). Beşbarmaq dağının ətrafında yaşayan əhali ilə bağlı olması tarixi qaynaqlardan məlumdur. Bu dağın yaxınlığındakı Baxşılı kəndinin də adı «Baxşı-ozan» adından götürülübdür.

"Aşıq" türk mənşəli "işıq" sözündən götürülüb. Sonralar bir fəxri ad (titul) kimi XI-XII əsrlərdən bəllidir. Bilici, müdrik el nəğməkarları zaman keçdikcə Azərbaycan xalqı arasında aşıq kimi adlandırılmağa başlanmışdır.

Ulu sələflərini təmsil edən aşıqlar, XIII-XIV əsrlərdən etibarən ozan-aşıq, qopuz-saz, söz və ifaçılıq (saz çalmaq, avazla oxumaq, rəqs etmək və danışmaq) sənətini inkişaf etdirərək ölkəmizin ərazisində yaymağa başlamışlar.

XVI əsrdən etibarən Şah İsmayıl Xətainin (1487-1524) Azərbaycan dilli ədəbiyyata, aşıq sənətinə böyük qayğı göstərməsi milli mədəniyyətimizin vüsət alması üçün əsas amil olmuşdur. Şah İsmayılın nüfuzunu təbliğ edən bilicilərə «şeyx», «şıx», bilici ozanlara isə hörmət əlaməti olaraq «a şıx» deyə müraciət edilməsi, sonralar «aşıq» fəxri adı kimi söz-sənət bilicilərinin adına əlavə olunmuşdur.

Bu adı qazanmış Şah İsmayılın atası Şeyx Heydər (1460-1488) Beşbarmaq dağının qərbində Xızı ərazisində dəfn olunmuş və məzarı ətrafında onun şərəfinə Pirabad Şıxlar adı ilə tanınan tarixi kənd mövcud olmuşdur. Bu kəndin dağılmış tikililəri indi də həmin ərazidə qalmaqdadır.

Yaşadığımız Siyəzən bölgəsi (keçmiş Bərmək mahalı və Beşbarmaq dağından Şabrana qədər uzanan Xəzər sahili düzənlik ərazi-Qayadaban) hələ qədim zamanlardan mərd, müdrik, yaradıcı insanları və sənətkar aşıqları ilə məşhur olmuşdur.

Aşıq sənətinin bənzərsizliyi haqqında Azərbaycanın görkəmli mütəfəkkirləri, elm xadimləri çox qiymətli fikirlər söyləmişlər. Görkəmli maarifçi Həsən bəy Zərdabi demişdir, Azərbaycan xalqı aşığa elə qulaq asır ki, lap ətini kəssən də xəbəri olmaz.

Ölkəmizdə aşıq ədəbiyyatının və aşıq yaradıcılığının inkişafının tarixi meylləri folklorçu alimlərimizdən H. Araslının, M. H. Təhmasibin, P. Əfəndievin və Q. Namazovun əsərlərində dolğunluğu ilə göstərilmişdir.

XIX-XX əsrlərdə bölgəmizdə «Şirvan» aşıq məktəbinin layiqli davamçıları olmuş ustad aşıqların əziz xatirəsi bu gün də yaşlı nəsil tərəfindən ehtiramla yad edilir. XIX əsrdə görkəmli xalq aşığı Xaltanlı Tağının müasiri, bölgəmizin Zöhrabkənd kəndində yaşamış Ocaqqulu Mirzəmməd oğlu zamanında tanınmış el sənətkarlarından biri olmuşdur. Onunla bağlı dillərdə indi də maraqlı söhbətlər dolaşır. Zöhrabkənd kəndində yaşamış müdrik el ağsaqqalı və ruhanisi Məşədi Mirsadıq babam həmkəndlilərinə nəsihət etmişdir ki, Şamaxı tərəflərə yolunuz düşsə, qaçaq-quldura rast gəlsəniz, yaxud hansısa evdə qonaq qalsanız, kimliyinizi soruşsalar, Zöhrabkənddən, aşıq Ocaqqulunun kəndindən olduğunuzu mütləq söyləyin. Aşığın nüfuzuna görə, sizə böyük ehtiram göstəriləcəkdir.

XX əsrdə yaşamış aşıqlardan Ocaqqulu Bibiqulu oğlu, Sağolcanlı Yarbala Ağazaman oğlu, "Cavan Gülşən" dastanının və onlarla aşıq şeirlərinin müəllifi olan ustad aşıq Ağbaşlı Zəbulla Yunus oğlu, Daşlı Calğanlı Həmid Balakişi oğlu, Dağquşçulu Şamil Əbülfərz oğlu, Mustafaxanlı Məhəmməd Qasım oğlu, aşıq Zeyhulla, aşıq Qurbanəli zamanında bu qədim sənətin adət-ənənələrini yaşadaraq bölgəmizdə saz-söz sənətinin yayılmasında böyük xidmət göstərmişlər.

Şirvan aşıq məktəbinin layiqli davamçılarından biri də həmyerlimiz, tanınmış saz-söz adamı, el sənətkarı Aşıq Əli Sahibcan oğludur.

Aşıq Əli Məmmədov 1941-ci il dekabr ayının 22-də rayonumuzun Böyük Həmyə kəndində (Qayadabanı düzənində yerləşən keçmiş Ərəb Həmyə) elmə, biliyə dəyər verən bir ailədə anadan olmuşdur. Orta təhsilini o vaxtlar kənddəki yeddillik və Siyəzən şəhəri C. Cabbarlı adına orta məktəbdə almışdır.

Ömrünün bu ahıl çağında Əli müəllim hələ məktəb illərindən ədəbiyyata, xalq dastanlarına, musiqiyə, saz havalarına, bir sözlə, aşıq sənətinə böyük həvəs göstərdiyini kövrək notlarla xatırlayır, qəlbində ədəbiyyata, poeziyaya böyük sevgi hissini aşılamış yuxarı siniflərdə ona bu fənni tədris eləmiş müəllimlər müəllimi Hüseyn Nuriyevi bu gün də ehtiramla yad edir.

Yeniyetmə Əlinin-gələcək aşığın ilk dinləyiciləri qohumları Əmirxan Hacı Əlibala oğlunun evində keçirilən məclisin qonaqları; Molla Camal, dayısı Sabir Müslim oğlu, atası və qeyriləri olur. Onun «Koroğlu» dastanından, aşıq Ələsgərdən söylədiyi gəraylı, qoşma və ustadnamələr məclisdəkilər tərəfindən alqışlarla qarşılanır.

1958-ci ildəsə Siyəzən şəhərində Əlisəməd Hüseynağa oğlunun toy məclisində Şirvan aşıq məktəbinin görkəmli ustadı Aşıq Şakirin saz çalıb oxumasına, şeir deməsinə böyük vurğunluqla qulaq asan gənc Əli qəlbən bir daha aşıq sənətinə, saz dünyasına bağlanır.

1959-cu ildə Əli atasının dəstəyi ilə Siyəzəndə yaşayan Sağolcanlı Aşıq Yarbala Ağazaman oğlundan dəyəri o vaxtın rus pulu ilə 30 manata «Orta» saz alır. O, mizrab vurub, barmaqlarını pərdələrdə gəzdirərək saz çalmağı ilk ustadı, el sənətkarı Aşıq Ocaqqulu Bibiqulu oğlundan öyrənib mənimsəyir. Həmin vaxtlarda «Siyəzənneft»in Mədəniyyət Sarayında fəaliyyət göstərən musiqi dərnəyinə gəlişi isə onun istəyi yolunda yaşıl işıq yandırır. 1959-1960-cı illərdə dərnəyə rəhbərlik etmiş respublikamızın tanınmış, sevilən bəstəkarı və mədəniyyət işçisi Şahid Əbdülkərimovla tanışlıq gənc Əlinin həyatında təzə səhifə açır. Belə ki, Əlinin saz çalmaq bacarığını görən, məlahətli səsini dinləyən bəstəkar ona aşıq ifaçılığına başlamağı məsləhət görür. Bu söhbətdən sonra Ə. Məmmədov musiqi dərnəyinə davam etməklə yanaşı, ustad sənətkar Aşıq Zəbulla Yunus oğlunun yanında şagirdliyə başlayır. Gənc aşıq qısa zaman müddətində ustadından «Şirvan şikəstəsi», «Döymə şikəstə», «Peşro» və s. aşıq havalarını çalıb oxumağı, «Şah İsmayıl», «Koroğlu» , «Əlixan və Pəri», «Valeh və Zərnigar», «Yetim Aydın», «Cavan Gülşən», «Ordubadlı Kərim» və s. kimi qəhrəmanlıq, məhəbbət və ailə-məişət dastanlarını danışıb söyləməyi öyrənir. Gözəlləmə, ustadnamə, deyişmə, bənzətmə və digər aşıq şeir növlərindən hali olur və fəaliyyət göstərdiyi dərnəkdə ifa edir. Şirvan aşıq məktəbinin ustadları Aşıq Bilal, Aşıq Barat, Aşıq Pənah, Aşıq Qurban, Aşıq Məmmədağa və digərlərindən bəhrələnərək illər ötdükcə püxtələşir.

## İllər, xatirələr

Həm də yaşadığı Böyük Həmyə kənd klubunda aşıq kimi fəaliyyət göstərən Əli Məmmədov şamaxılı Aşıq Şərbətin vasitəsi ilə Şəmkir rayonunda yaşayan saz ustasından 300 manata 8 simli, sədəfli, «Tavar» saz (böyük saz) alır.

Şabran rayonunda, Siyəzən şəhərində el şənliklərində, əlamətdar günlərdə zəhmətkeşlər qarşısında çıxış etməyə hazırlaşan Əli, qaragül dəridən "Buxara" papaq, yumşaq dəridən uzunboğaz (xrom) çəkmə, enli dəri qayış, lafsan və qabardin parçalardan aşıq geyimləri tikdirir.

Ömrünün sevib-sevilən çağında, 1963-cü ildə gənc aşıq həlim təbiətli, nəcib və xoşxasiyyətli mahir xalça toxucusu, həmkəndlisi Afət Məmmədzaman qızı ilə ailə həyatı qurur. Toy məclisini Şamaxıdan dəvət edilmiş Aşıq Şahpələng aparır.

Afət xanımın toxuduğu xalçalar onun incə zövqündən, zərif barmaqlarının sehrindən xəbər verməklə evinin yaraşığına, ailəsinin maddi sərvətinə çevrilir. Xalçalar üzərindəki gül-çiçək təsvirlərini, qənirsiz gözəlin qoşa zülfünü xatırladan, göz oxşayan, könül xoşlayan saçaqlarını seyr edən Aşıq Əlinin söz və musiqi çeşməsinin ilham mənbəyi günü-gündən coşub daşır.

İfaçı aşıq kimi Böyük Həmyə kənd klubunda fəaliyyət göstərən Ə. Məmmədov ötən əsrin 70-ci illərində «Xalq mahnılarının təbliğində fəal iştirakına görə» SSRİ Bəstəkarlar İttifaqının Diplomu ilə təltif olunur.

Bəli, uzun müddət 1965-2000-ci illər ərzində el şənliklərində, dövlət bayramlarında, mədəni-kütləvi tədbirlərdə Ə. Məmmədov peşəkar yaradıcı aşıq kimi tanınmış, el dastanlarının, aşıq şeirinin təbliğində, el-obada yayılmasında öz xidmətlərini göstərmişdir. Şimal bölgəsində bir çox kəndlərdə saysız-hesabsız toy şənlikləri aparmış, tamaşaçıların hörmətini qazanmışdır. Aşığın əməyi diqqətdən kənarda qalmır. Aşıq Əli 1982-ci ildə keçirilmiş Azərbaycan aşıqlarının 4-cü qurultayında rayon aşıqlarını təmsil etmişdir. Olduqca yüksək səviyyədə keçən bu ali məclisdə o, xalq yazıçısı Mirzə İbrahimovla, xalq şairi Süleyman Rüstəmlə, ustad aşıqlardan Mikayıl Azaflı, Əkbər, İmran, Hüseyn Cavan Gəncəli və başqaları ilə yaxından görüşüb tanış olur. Həmin ilin mart ayındasa Bakıda keçirilən, «Yaz bayramı, saz bayramı» ümumrespublika şənliyində ifaçı aşıq kimi iştirak edir.

Ustad el sənətkarı Aşıq Ələsgərin (1821-1927) aşıqlıq peşəsini «Xalq müəllimi» fəxri adı ilə adlandırması Əlinin gələcəkdə həm də müəllimlik peşəsinə marağını artırır. Əvvəlcə APİ-nin «ibtidai metodika», sonrasa həmin ali mktəbin «Dil-ədəbiyyat» fakültəsini bitirən Əli Məmmədov onlarla aşıq şeirinin müəllifidir. Şeirlərindəki vətənə, dosta, yurda bağlılıq və böyük sevgi elə ilk misralardan diqqəti cəlb edir. Oxuculara təqdim etdiyimiz «Aşıq qocalmaz» qoşması da bu qəbildən olan şeirlərdəndir.

## Aşıq qocalmaz

*Elləri, obanı gəzsə bəxtiyar*
*Xalqla nəfəs alsa, aşıq qocalmaz.*
*Silinsə qəm, kədər dünya üzündən,*
*Vətən cənnət olsa, aşıq qocalmaz!*

*Dostlardan sədaqət, qardaşdan vəfa*
*Övladdan məhəbbət, qohumdan səxa,*
*Görsə coşar qəlbi dönər bir dağa,*
*Yarı qanan olsa, aşıq qocalmaz.*

*Düşməndən alınsa intiqam, qisas.*
*Yeni mahnılarda dinər telli saz.*
*Üzlərdə təbəssüm, dillərdə avaz,*
*Qəlbdə sevinc görsə, aşıq qocalmaz!*

*Əli, söz bazarın açarsa harda,*
*Bir inci paylayar toyda, mağarda.*
*Arif məclisində, alim yanında,*
*Sözü ötkəm olsa, aşıq qocalmaz!*

Aşıq Əli Məmmədov müxtəlif illərdə pedaqoji fəaliyyətlə də məşğul olmuş, müəllim, məktəb direktoru, kənd sovetinin sədri vəzifələrində işləmişdir. Təhsil Nazirliyinin, məktəb rəhbərliyinin fəxri fərmanlarını almışdır. 2006-cı ildən təqaüddədir.

Quş qanadlı illərdə ən yaxın dostu, həmdəmi olmuş telli sazı ona hər şeydən əzizdir. El sənətkarı, peşəkar ifaçı Aşıq Əlinin ən böyük istəyisə rayonumuzda gənclərimizdə aşıq sənətinə sevgi hissləri aşılamaq, Dədə Qorqudun, Aşıq Ələsgərin yadigarı sazı sevdirməkdir.

**Valeh Loğman oğlu Sadıqov,**
**istefada olan polis polkovnik-leytenantı.**

# Daha bir uğur

***Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.***
**İlham Əliyev**

Azərbaycanda hər bir sahədə müşahidə olunan inkişaf tendensiyası təhsil sektorunda da nəzərə çarpmaqdadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.

Eyni zamanda sevinc hissi ilə qeyd etməliyəm ki, Siyəzən rayonunda da hər zaman təhsilə yüksək qiymət verilmiş, orta məktəblərdə tədrisin səviyyəsinin artırılması daim rayon rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bu isə bir pedaqoq və fizika müəllimi kimi məni daha da ruhlandırır.

Artıq müəllim yalnız fənnini bilməklə kifayətlənməməlidir. Məhz bu prinsipləri əsas tutaraq 2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinə (ARTN) layihə təqdim etdim və təqdim etdiyim layihə «Elektron təhsil» müsabiqəsində «Multimediya vasitələrindən istifadə etməklə qurulan ən yaxşı resurs» nominasiyasında 2-ci yerin qalibi oldu.

Məlum olduğu kimi, respublikamızın orta ümumtəhsil məktəblərində şagirdin nailiyyətlərini qiymətləndirmək məqsədilə summativ qiymətləndirmələr aparılır. 29 dekabr 2018-ci ildən isə məktəbdaxili qiymətləndirmə yeni mərhələyə keçid etmişdir. Yeni qiymətləndirmə zamanı lazım olan summativ qiymətləndirmə nümunələrinin azlığı orta məktəb müəllimləri üçün müəyyən çətinliklər yaradır. Bu çətinliyi mən də hiss edərək öz fənnimin tədrisi zamanı müxtəlif vəsaitlər hazırlamaqla yaranmış problemin az da olsa, öhdəsindən gəlməyə çalışdım. Fəxr hissi ilə demək istəyirəm ki, 2019-cu ilin mart ayında ARTN tərəfindən elan olunmuş Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinə təqdim etdiyim layihə-«Fizika fənnindən 6, 7, 8, 9-cu siniflər üçün summativ qiymətləndirmə» fərdi kateqoriya üzrə qalib oldu. Bu, təkcə mənim yox, həm müəllimi olduğum məktəbin, həm də rayonumuzun çoxsaylı uğurlarından biridir. «Keyfiyyətin idarə olunmasında müasir qiymətləndirmə vasitələrinin tətbiq olunması» istiqamətində hazırlanan vəsait artıq bitmək üzrədir və vəsaitdə 6-9-cu siniflər üçün fizika fənni üzrə Təhsil Nazirliyinin təsdiq etdiyi AR ümumtəhsil məktəbləri üçün təhsil proqramı (kurikulum) əsasında bir neçə variant üzrə kiçik və böyük summativ nümunələr öz əksini tapır.

**Fəridə Ağayeva,**
**2 saylı tam orta məktəbin fizika müəllimi.**

### İtmişdir

Salmanov Ələşrəf İsa oğluna məxsus avtomobilin qabaq 40-BS-449 nömrəli Dövlət Qeydiyyat nişanı naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 4021
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83